**Harold Pinter**

# Tənha yolçu

(pyes)

**İngilis dilindən tərcümə edəni Xəyalə Məmmədova**

Yarıqaranlıq otaq. Otağın ortasında stul və qarşısında enli stol. Nikolas stulda oturub. O, stola tərəf əyilir və telefonu qaldırır.

**Nikolas.** Onu içəri gətirin. (Arxaya söykənir. Qapı açılır. Viktor yavaş-yavaş içəri girir. Paltarı cırılıb. Onu möhkəm döyüblər. Arxadan qapı örtülür). Salam! Sabahın xeyir. Necəsən? Sən də mənim kimi alicənab adamsan. Otur. Bizə problem yaratma. (Viktor yavaş-yavaş oturur. Nikolas qalxır və ona tərəf gəlir). Səncə bu nədir? Bu mənim barmağımdır. Bu isə kiçik barmağım. Baş barmağımı sənin gözünün önündə yellədirəm. Bax belə. İndi həmin şeyi kiçik barmağımla edirəm. Eyni vaxtda ikisini də edə bilərəm. İstədiyimi edə bilərəm. Səncə dəliyəm? Ancaq anam elə fikirləşirdi ki, dəliyəm. (Gülür). Səncə insanların gözünün önündə barmağını yelləmək axmaqlıqdır? Bunu sənin gözlərindən görürəm. Çox ağıllı insansan. Nəyə görə gözlərə bu qədər fikir verirəm? Öz gözlərimə yox, bura gətirilən insanların gözlərinə. Onlar necə də zəif və kövrəkdirlər. Ruhları gözlərindən görünür. Dindarsan? İnanıram. Səncə Allah kimin tərəfindədir? İçmək istəyirəm. (Şkafa tərəf gedir və viski süzür). Yəqin sənin üçün maraqlıdır arvadın haradadır. (İçir). Gözəl qadındır. (İçir). Çox dadlıdır. (Bir az da viski süzür). Narahat olma, sərxoş olmaram. (İçir). Yəqin, düşünürsən ki, çərənçiyəm. Yox, elə deyil. Tanrı mənimlə danışır. Hər zaman Bibliyaya əsaslanıram. Ancaq, yəhudi deyiləm. Hər kəs mənə hörmət edir. Sən də həmçinin. Məncə doğru fikirdir. (Sükut). Ayağa qalx! (Viktor qalxır). Otur! (Viktor oturur). Çox sağ ol. (Sükut). Bir şey danış... (Sükut). Arvadın çox gözəl qadındır. Çox xöşbəxt insansan. De görüm... məncə sənə tənha yolçu deməliyəm. (Viski süzür). Bilirəm, mənə hörmət edirsən. (Viktorun qarşısında dayanır və ona baxır. Viktor gözlərini qaldırıb Nikolasa baxır). Məsuliyyəti üzərimə götürməklə düz etmişəm, elə deyil?

Sükut.

**Viktor.** (Sakitcə) Səni tanımıram.
**Nikolas.** Ancaq mənə hörmət edirsən.
**Viktor.** Səni tanımıram.
**Nikolas.** Deyirsən ki, mənə hörmət etmirsən? (Sükut). Deməli, məni yaxından tanısan, hörmət edəcəksən? Məni yaxından tanımaq istəyirsən? (Sükut). Yaxından tanımaq istəyirsən?
**Viktor.** Nə istədiyimin məsələyə aidiyyatı yoxdur.

**Nikolas.** Səhv edirsən, var. (Sükut). Haqqında çox eşitmişəm. Səninlə tanış olmağıma çox şadam. Düzdür, "şad oldum" düzgün söz deyil. İnsan danışanda gərək həmişə fikrini düzgün ifadə etsin. Mənim üçün maraqlıdır. Haqqında çox şey eşitmişəm. Həm də yeganə insansan ki, mənə hörmət etmirsən. Hər kəs bilir ki, Tanrı mənimlə danışır. Sən dindar deyilsən. Bunu indi anlayıram. (Sükut). Tanrı işığına göz yumursan. (Sükut). Bəs, sonra nə olacaq? (Sükut). Quruda çabalayan balıq kimisən. Bu dünyada yerini düzgün tapmamısan. (Sükut). Məncə, mən də bu dünyada tənha yolçuyam. (Viski



süzür). Viski içirsən? (Sükut). Eşitmişəm, sənin gözəl evin olub. Kitablarla dolu. Kimsə mənə dedi ki, mənim adamlarımdan biri onları məhv edib. İstəməzdim ki, onlar belə etsinlər. Ancaq bilirsən, onların belə öhdəlikləri var. Həmişə onlar bu öhdəlikləri yerinə yetirməyə hazır olmalıdırlar. Çox çalışırlar. Bəzən artıq hərəkətlər də edirlər. Bunu anlamalısan. Başa düşürsən? Çox ağıllı insansan. (Sükut). Oğlun yaxşıdır?
**Viktor.** Bilmirəm.
**Nikolas.** Əminəm ki, o yaxşıdır. Onun neçə yaşı var... yeddi ya... neçə? Böyük oğlandır. Ancaq bu cür hərəkət etməməli idi. Axmaqlıqdır. Hər halda, necədir?
**Viktor.** Bilmirəm.
**Nikolas.** Əminəm ki, yaxşıdır. Onunla danışaram. Hardasa ikinci mərtəbədə olmalıdır. (Sükut). Yaxşı, indi... (Sükut). Nə deyirsən? Artıq dostuq? (Sükut). Həmişə səmimi olmağa çalışmışam, əsl dost kimi. Ölümü xoşlayıram. Bəs sən? (Sükut). Ölümü xoşlayırsan? Əlbəttə ki, öz ölümün vacib deyil. Başqasının. Başqasının ölümünü. Başqasının ölümünü mənim kimi xoşlayırsan? (Sükut). Həmişə belə maraqsız olursan? Başa düşdüm, ancaq sakit oturub müzakirəyə qulaq asmağı xoşlayırsan. (Sükut). Ölüm. Ölüm. Bəzilərinin dediyi kimi, çox gözəldir. Həyatda ən gözəl, ən maraqlı şeydir. Heç nə onunla müqayisə oluna bilməz. (İçir). Hə, mehribanlıqdan söz düşmüşkən... (Ucadan gülür və dayanır). Sənin arvadın...? O... O nəyi xoşlayırdı? Arvadını deyirəm. (Sükut). Ehtiraslı idi? (Möhkəm qışqıraraq). Ehtiraslı idi? (Gülür). Deməli, buradan belə çıxır ki, ya o kifayət qədər ehtiraslı olmayıb, ya da sənin bundan heç xəbərin yoxdur. (Sükut). Biz hamımız Tanrının yaratdıqlarıyıq, hətta sənin arvadın belə. (Sükut). Ancaq bir öhdəliyimiz var, dürüst olmaq. Başqa öhdəliyin ola bilməz. Bunu həmişə yadında saxla. Bilirsən bu ölkəni kim idarə edir? Bilmirsən? O, çox yaxşı insandır. Bir dəfə məni özü ilə gəzintiyə aparmışdı. Bilirsən mənə nə dedi? Mənə dedi ki, düzgünlük ən yaxşı siyasətdir. (Viski süzür). Arvadınla çox gözəl söhbətim oldu. Ancaq o nə isə yaxşı görünmürdü. (Sükut). Bilirsən, dostum, ölümdən başqa digər şeyləri də sevirəm. Təbiəti, ağacları, buna bənzər hər şeyi. Aydın, mavi səmanı, çiçəkləri. (Sükut). Düzünü de... indi... indi məndən xoşun gəlir? (Sükut). Məncə arvadının məndən xoşu gəlir. Məni sevməyə başlayıb. Bir problem var ki, rəqiblərim var. Çünki burada hamı sənin arvadına vurulub. Onun gözləri hamını heyran edib. Adı nədir? Cila... ya başqa nə isə? (Sükut). Səncə, kiminlə olmağa üstünlük verəcək, səninlə, ya mənimlə? (Sükut). Yerinə olsaydım deyərdim ki, məni seçəcək. Problemin odur ki, uduzan tərəfsən. Mənimsə hələ şansım var. Məni anlaya bildin? İcazə ver, bir şeyi boynuma alım. Heç vaxt həyatımda bu qədər xöşbəxt olmamışdım. Dövlət başçısı çıxış edəndə gərək onu görəydin. Bilirsən nə dedi? Dedi ki, biz hamımız bu torpağın övladıyıq və bu torpağı sevməliyik. Əlbəttə ki, səndən başqa. (Sükut). Məncə aramızda bir bağlılıq var. Tək deyiləm.

Sükut.

**Viktor.** Öldür məni.
**Nikolas.** Nə?
**Viktor.** Öldür məni.

Nikolas ona tərəf gedir və əlini onun çiyninə qoyur.



**Nikolas.** Nə olub? (Sükut). De görüm nə olub? (Sükut). Mmmnn? (Sükut). Yəqin sən acsan. Ya da susamısan. İcazə ver bir söz deyim. Ümidsizliyi sevmirəm. Ümidsizlik xərçəng xəstəliyi kimi bir şeydir. Onu başından çıxarıb atmaq lazımdır. Həmişə şahidi olmuşam ki, işə yarayır. Bu haqda düşünmə və özü çıxıb gedəcək. Mənə bax. (Viktor başını qaldırıb ona baxır). Ruhun gözlərindən görünür. (İşıqlar sönür. Günorta. Işqlar yanır. Nikolas balaca bir oğlanla dayanıb). Adın nədir?
**Niki.** Niki.
**Nikolas.** Doğrudan? (Sükut). Sən kovboy və hinduları xoşlayırsan?
**Niki.** Hə.
**Nikolas.** Bəs ən çox nəyi xoşlayırsan?
**Niki.** Təyyarələri.
**Nikolas.** Həqiqi təyyarələri, yoxsa oyuncaq?
**Niki.** Hər ikisini.
**Nikolas.** Doğrudan? (Sükut). Nəyə görə təyyarələri xoşlayırsan?

Sükut.

**Niki.** Çünki onlar sürətlə gedirlər. Hava ilə. Həqiqi təyyarələr çox sürətlidir.
**Nikolas.** Bəs oyuncaqlar?
**Niki.** Oynayanda elə təsəvvür edirəm ki, onlar sürətlidir.

Sükut.

**Nikolas.** Ata və ananı sevirsən? (Sükut). Ata və ananı necə, sevirsən?
**Niki.** Hə.
**Nikolas.** Niyə? (Sükut). Niyə? (Sükut). Səncə çətin sualdır?

Sükut.

**Niki.** Anam haradadır?
**Nikolas.** Ananı və atanı sevmirsən?
**Niki.** Sevirəm.
**Nikolas.** Niyə? (Sükut). Böyüyəndə əsgər olmaq istərdin?
**Niki.** Pis olmazdı.
**Nikolas.** Lap yaxşı. Əsgərləri xoşlayırsan. Ancaq sən əsgərlərimə tüpürürdün və onları vururdun.
**Niki.** Onlar sənin əsgərlərin idi?

**Nikolas?** Onlar sənin dövlətinin əsgərləridir.
**Niki.** Onlar xoşuma gəlmədi.
**Nikolas.** Onların da səndən xoşu gəlmədi. (İşıqlar sönür. Axşam. İşıqlar yanır. Nikolas oturub. Cila ayaqüstə dayanıb. Paltarı cırılıb. Onu döyüblər). Ərini ilk dəfə nə vaxt görmüsən?
**Cila.** On səkkiz yaşımda.
**Nikolas.** Niyə?



**Cila.** Nə, niyə?
**Nikolas.** Niyə?
**Cila.** Sadəcə onu gördüm.
**Nikolas.** Niyə?
**Cila.** Bunu qabaqcadan planlaşdırmamışdım.
**Nikolas.** Nə üçün?
**Cila.** Onu tanımırdım.
**Nikolas.** Niyə tanımırdın? (Sükut). Niyə?
**Cila.** Onu tanımırdım.
**Nikolas.** Niyə?
**Cila.** Onunla tanış oldum.
**Nikolas.** Nə vaxt?
**Cila.** On səkkiz yaşımda.
**Nikolas.** Niyə?
**Cila.** O otaqda idi.
**Nikolas.** Otaqda? (Sükut). Otaqda?
**Cila.** Eyni otaqda idik.
**Nikolas.** Necə yəni?
**Cila.** Bir yerdə idik.
**Nikolas.** Bir otaqda?

Sükut.

**Cila.** (Qışqıraraq). Hə!
**Nikolas.** Otaq? Hansı otaq?
**Cila.** Hə, otaq.
**Nikolas.** Hansı otaq?
**Cila.** Atamın otağı.
**Nikolas.** Atanın? Atanın nə işi var? (Sükut). Atanın? Necə cəsarət edirsən, lənətə gəlmiş! (Sükut). Atan çox gözəl insan olub. Dövlət onunla fəxr edir. O ölüb. Çox qürurlu insan idi. Atanın xatirəsini təhqir etmək istəyirsən? (Sükut). Atanın xatirəsini alçaltmaq istəyirsən? O, dövləti üçün vuruşub. Onu tanıyırdım. Ona çox böyük hörmətim olub. Hər kəs ona hörmət edirdi. Tanrıya inanırdı. Heç vaxt sizin kimi düşünməyib. Həyatını vətəni üçün yaşayan insan olub. Dövləti, Tanrısı xatirinə ölməyə hazır idi və Tanrı naminə öldü. Sənin kimi alçaq insanı qoyub getdi. Taleyə bax. Hansı cəsarətlə yanımda atan haqqında danışa bilirsən? Onu öz atam kimi sevirdim. (Sükut). Ərinlə harada tanış olmusan?

**Cila.** Küçədə.
**Nikolas.** Orada nə edirdin?
**Cila.** Gəzirdim.
**Nikolas.** Bəs o nə edirdi?
**Cila.** Gəzirdi. (Sükut). Nə isə yerə saldım. O götürdü.
**Nikolas.** Yerə saldığın nə idi?
**Cila.** Nə isə kağız idi.



**Nikolas.** İçkili idin? (Sükut). Narkotik maddə qəbul etmişdin? (Sükut). Xəstəxanadan qaçmışdın?
**Cila.** Heç vaxt xəstəxanada olmamışam.
**Nikolas.** İndi haradasan? (Sükut). İndi haradasan? Səncə xəstəxanadasan? (Sükut). Səncə yuxarıda rahibələr var? (Sükut). Yuxarı mərtəbədə nə var?
**Cila.** Yuxarıda rahibə yoxdur.
**Nikolas.** Bəs nə var?
**Cila.** Adamlar.
**Nikolas.** Onlar səni zorlamışdılar? (Cila qəzəblə ona baxır). Neçə dəfə? (Sükut). Neçə dəfə səni zorladılar? (Sükut). Neçə dəfə? (Qalxır, Cilaya tərəf gedir və barmağını qaldırır). Bu baş barmağımdır. Bu isə kiçik barmağım. Gözünün qabağındadır. Neçə dəfə zorlandın?
**Cila.** Bilmirəm.
**Nikolas.** Özünü etibarlı şahid hesab edirsən? (Şkafa tərəf gedir, viski süzür və oturub içir). Gözəl qadınsan. Belə deyək, əvvəl gözəl olmusan. (Arxaya söykənir, içir). Oğlunun... yeddi yaşı var. Tərbiyəsizdir. Onu sən belə etmisən. Bir seçimin var. Onu yaxşı, tərbiyəli etməlisən. Ya da indiki kimi tərbiyəsiz qalacaq. Əsgərlərə tüpürməyi, onlara hücum etməyi sən öyrətmisən. Onlar Tanrının əsgərləridir. (Sükut). Mənim üçün maraqlı deyilsən. Müəyyən şərtlə səni buradan buraxa da bilərəm. Ancaq, getməzdən əvvəl bizi bir az da əyləndirə bilərsən. (İşıqlar sönür. Gecə. İşıqlar yanır. Nikolas ayaqüstə dayanıb. Viktor isə oturub). Necəsən? Sağ qala bilirsən?
**Viktor.** Hə.
**Nikolas.** Hə?
**Viktor.** Hə. Hə.
**Nikolas.** Doğrudan? Necə?
**Viktor.** Ah...

<u>Sükut.</u>

**Nikolas.** Eşidə bilmirəm.
**Viktor.** Ağzım.
**Nikolas.** Ağzın?
**Viktor.** Dilim.
**Nikolas.** Dilinə nə olub? (Sükut). İçmək istəyirsən? Tənha yolçunun şərəfinə. Nə deyirsən? (O, iki qədəhə içki süzür və birini Viktora verir). İç. Istəsən sənin üçün qadın da gətirərik. (Gülür). Yuxarıda otaq var. Oradakı qadınların hamısı könüllü işləyir. Ataları bizimlə işləyir. İç. Mənimlə içmək istəmirsən? (Viktor içir. Başı arxaya tərəf

gedir). Şərəfinə! (Nikolas içir). Gedə bilərsən. (Sükut). Gedə bilərsən. Yenidən görüşəcəyik. Əminəm ki, həmişə dost kimi qalacağıq. Çıx bayıra. Həyatdan zövq al. Arvadını həmişə sev. Yeri gəlmişkən, sənə bir həftədən sonra qoşulacaq. Əlbəttə, əgər getmək istəsə. Məncə ikimiz də bu söhbətlərdən çox şey qazandıq. (Viktor sakitcə nə isə deyir). Nə? (Yenə də nə isə dodağını tərpədir). Nə?
**Viktor.** Oğlum.
**Nikolas.** Oğlun? Ah, ondan narahat olma. Çox tərbiyəsiz oğlun var.
Viktor qəzəblə Nikolasa baxır. Sükut. İşıqlar sönür.

**SON**